**Aytac Saleh qızı HƏSƏNOVA**
Qərbi Kaspi Universitetinin magistrantı
E-mail: hesenovaa951@gmail.com

# ƏLÇATAN TURİZMİN İNKİŞAFINDA DÖVLƏT VƏ ÖZƏL SEKTOR TƏRƏFDAŞLIĞININ İQTİSADİ EFFEKTİVLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

Bu məqalənin əsas məqsədi məhz əlçatan turizmin inkişafında dövlət və özəl sektor tərəfdaşlığının iqtisadi effektivliyini qiymətləndirməkdir. Əlçatan turizm bir tərəfdən sosial bərabərlik məsələsidir, digər tərəfdən isə turizmin gəlir bazasını genişləndirən iqtisadi qərardır. Tədqiqatda metod olaraq 2015–2024-cü illər dövrü üzrə Azərbaycan və seçilmiş ölkələr (Türkiyə, Gürcüstan, Baltikyanı ölkələr) kontekstində turizm axınları, turizm xərcləri və turizm xidmətləri balansı üzrə statistik məlumatların müqayisəli təhlili aparılmışdır. Araşdırmada əldə edilən nəticələr göstərir ki, əlçatan turizm bazarı qlobal miqyasda geniş bir potensiala malikdir və infrastrukturun uyğunlaşdırılması üzrə sərmayə dövlətin tənzimləyici imkanları ilə özəl sektorun investisiya və əməliyyat səmərəliliyini birləşdirəndə daha aşağı risklə icra olunur. Azərbaycan üzrə 2024-cü ildə ölkəyə gələn əcnəbilərin sayı məhz 2,626,700 nəfər olmuş, turistlərin turizm məqsədli xərcləri isə eyni dövrdə 3.4 milyard manata çatmışdır. Mövcud dinamika onu göstərir ki, hər kəsə əlçatanlıq yönümlü layihələr turizm üzrə gəlir bazasını genişləndirir və DÖST çərçivəsində qurulan obyektlərdə əlavə gəlir və vergi axını yaradır. Əlçatanlıq tələblərinin layihə dizaynına əvvəlcədən daxil edilməsi əməliyyat xərclərini azaldır, xidmət keyfiyyətini yüksəldir və mövsümi asılılığı zəiflədir.

**Açar sözlər:** əlçatan turizm, dövlət-özəl tərəfdaşlığı, iqtisadi effektivlik, turizm xərcləri, turizm xidmətləri balansı.

**UOT:** 338.48
**JEL:** L83, H54, L33
**DOI:** https://doi.org/10.54414/LUJX2609

## Giriş

Əlçatan turizm bir tərəfdən sosial bərabərlik məsələsidir, digər tərəfdən isə turizmin gəlir bazasını genişləndirən iqtisadi qərardır. Əlilliyi olan və ya hərəkət imkanları məhdud şəxslər təkcə ayrıca bir qrup deyil, ailə və müşayiətçi ilə səyahət edən və daha uzun müddət qalmağa meylli olan turist segmentidir. Bir sıra tədqiqatlarda göstərilir ki, əlçatanlıq tələbləri turizm məhsulunun dizaynına əvvəlcədən daxil ediləndə sonradan yenidənqurma xərcləri azalır və xidmətin ümumi keyfiyyəti yüksəlir [11, s.50]. Praktiki mühitdə əlçatan turizmin inkişafı çox vaxt "kim maliyyələşdirəcək" sualına ilişib qalır. Dövlətin sosial öhdəliyi var, amma büdcə məhduddur; özəl sektor isə investisiyanı gəlir və risk prizmasından qiymətləndirir. Məhz bu nöqtədə dövlət və özəl sektor tərəfdaşlığı mexanizmi iqtisadi səmərəliliyin ölçülə bildiyi bir çərçivə yaradır.

Ədəbiyyatda DÖST iki əsas xətt üzrə izah edilir. Birinci xətt DÖST-ni infrastrukturun maliyyələşdirilməsi və risklərin bölüşdürülməsi mexanizmi kimi təqdim edir: müqavilə dizaynı düzgün qurulanda dövlət xidmət keyfiyyətini və əlçatanlıq standartlarını qoruyur, özəl tərəf isə xərcləri optimallaşdırır və layihənin əməliyyat mərhələsində səmərəliliyi artırır [8, s.400]. İkinci xətt turizm kontekstində DÖST-nin "destinasiya idarəçiliyi" funksiyasını vurğulayır: yol, nəqliyyat, məlumatlandırma, təhlükəsizlik və əlçatanlıq birgə həll tələb etdiyi üçün tək bir aktorun qərarları kifayət etmir, koordinasiya lazımdır [6, s.6]. Onların ortaq nöqtəsi odur ki, iqtisadi effektivlik yalnız gəlir xətlərinə baxmaqla deyil, riskin və xərclərin dəyişməsini ölçməklə

qiymətləndirilməlidir. Ədəbiyyatda boşluq isə konkret olaraq əlçatan turizm layihələrində DÖST-nin ölçülə bilən nəticələrinin milli statistika ilə necə əlaqələndirilməsi və müqayisəli qiymətləndirmə çərçivəsinin necə qurulmasıdır. Bu məqalə həmin boşluğu praktik statistik göstəricilər üzərindən izah etməyə çalışır.

## Əsas mətn

Qiymətləndirmə çərçivəsi bu məqalədə məhz bu formada qurulmuşdur:

(i) bazarın miqyası və bərpa tempi – turist axını və xərcləmə;
(ii) sektorun valyuta və xidmət balansına təsiri – turizm xidmətləri ixracı/idxalı və saldo;
(iii) layihə səmərəliliyi – investisiya xərci, əməliyyat xərci, istifadə intensivliyi və gəlir/vergilər.

Bu məqalədə (i) və (ii) istiqamətləri 2015–2024 statistikası ilə ölçülür, (iii) istiqaməti isə həmin göstəricilərin DÖST modeli ilə necə yaxşılaşdırıla bilməsi üzərindən izah olunur.

**Cədvəl 1.** Azərbaycana gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sayı (2015–2024).

| İl | Say (nəfər) |
|---|---|
| 2015 | 2 006 176 |
| 2016 | 2 248 800 |
| 2017 | 2 696 700 |
| 2018 | 2 849 600 |
| 2019 | 3 170 400 |
| 2020 | 795 800 |
| 2021 | 791 800 |
| 2022 | 1 602 300 |
| 2023 | 2 085 790 |
| 2024 | 2 626 700 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi statistik nəşrləri [1,3].

Cədvəl 1-in məlumatları göstərir ki, 2015–2019-cu illər arasında Azərbaycana gələn əcnəbilərin sayı ardıcıl artım nümayiş etdirib. 2015-ci ildə 2.0 milyon nəfər olan göstərici 2019-cu ildə 3.17 milyon nəfərə yüksəlib. Artıma əsasən deyə bilərik ki, ölkənin regional turizm bazarında mövqeyi kifayət qədər güclənibdir. Həmin dövrdə viza prosedurlarının sadələşdirilməsi, hava nəqliyyatının genişlənməsi və beynəlxalq tədbirlərin təşkili turist axınına birbaşa təsir etmişdi. 2020–2021-ci illərdə isə kəskin eniş müşahidə olunur. Pandemiya və sərhəd məhdudiyyətləri səbəbindən turist sayı 800 min nəfər ətrafına düşüb. 2022-ci ildən etibarən bazarda canlanma başlayır. 2022-də göstərici 1.6 milyona, 2023-də 2.08 milyona, 2024-cü ildə isə 2.63 milyon nəfərə çatır. Yəni iki il ərzində turist axını demək olar ki, iki dəfəyə yaxın artır.

**Cədvəl 2.** Azərbaycanda xarici turistlərin turizm məqsədli xərcləri (2016–2024, manat).

| İl | Xərclər (manat) |
|---|---|
| 2016 | 1 411 300 000 |
| 2017 | 2 285 300 000 |
| 2018 | 2 661 600 000 |
| 2019 | 2 971 400 000 |
| 2020 | 414 700 000 |
| 2021 | 492 600 000 |
| 2022 | 1 340 200 000 |
| 2023 | 2 439 210 000 |
| 2024 | 3 400 000 000 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi statistik bülleten və məcmuələri [2,3].

Cədvəl 2-dən də göründüyü kimi, 2024-cü ildə turist sayı 2.63 milyon nəfər olduğu halda, turizm məqsədli xərclər 3.4 milyard manata yüksəlib. Sadə hesabla hər bir turist üzrə orta xərcləmə əvvəlki illərlə müqayisədə artım göstərir. Bu isə o deməkdir ki, ölkəyə gələn turist təkcə say baxımından çoxalmır, eyni zamanda daha çox vəsait xərcləyir. Xərcləmənin intensivləşməsi xidmət keyfiyyətinin, qiymət səviyyəsinin və təklif olunan turizm məhsullarının dəyərinin artması ilə əlaqələndirilə bilər. Başqa sözlə, 2024-cü il göstəriciləri bazarın tam bərpa mərhələsinə keçdiyini göstərir. Əgər 2020–2021-ci illər "şok mərhələsi" idisə, 2022–2023 "bərpa mərhələsi", 2024 isə artıq "genişlənmə mərhələsi" kimi xarakterizə oluna bilər. Turist sayının artımı ilə paralel xərclərin daha sürətli yüksəlməsi sektorun gəlir potensialının genişləndiyini göstərir. Bu dinamika əlçatanlıq və infrastruktur layihələrinin iqtisadi əsaslandırılması baxımından da əhəmiyyətlidir. Çünki bazar böyüyürsə və turist başına düşən xərcləmə artırsa, xidmət keyfiyyətinin yüksəldilməsi və əlçatanlıq standartlarının tətbiqi investisiya baxımından daha dayanıqlı görünür. Nəticədə turizm sektoru yalnız say artımı ilə deyil, gəlir artımı ilə də güclənən bir mərhələyə daxil olur. İqtisadi effektivlik baxımından DÖST-lə həyata keçirilən əlçatanlıq layihələrinin əsas arqumenti burada başlayır: bazar genişlənirsə, əlçatanlıq yatırımları daha çox müştəri cəlb edir, müştəri sayı artdıqca özəl tərəfin gəlir riski azalır və dövlətin verdiyi stimul daha az büdcə yükü ilə geri qayıdır.

**Cədvəl 3.** Azərbaycanda qarşılıqlı turizm xidmətlərinin dövriyyəsi (2022–2024, ABŞ $ mlrd).

| **İl** | **Dövriyyə** | **İxrac** | **İdxal** | **Saldo** |
|---|---|---|---|---|
| 2022 | 1.7 | 0.823 | 0.892 | -0.069 |
| 2023 | 2.6 | 1.5 | 1.1 | +0.342 |
| 2024 | 3.6 | 2.0 | 1.6 | +0.4503 |

**Mənbə:** Azərbaycan Mərkəzi Bankının tədiyə balansı üzrə rəsmi hesabatları [4,5].

Cədvəl 3 turizm xidmətlərinin dövriyyəsində artımı göstərir. 2022-də 1.7 mlrd ABŞ dolları olan dövriyyə 2024-də 3.6 mlrd dollara yüksəlib və ixracın idxalı üstələməsi nəticəsində müsbət saldo formalaşıb [4,5]. Bu göstərici əlçatan turizmin iqtisadi effektivliyini ölçmək üçün praktik indikator rolunu oynayır: əlçatanlıq yatırımları turist xərclərini və xidmət ixracını artırırsa, valyuta axını və tədiyə balansına töhfə də artır. Dövlət üçün bu, sosial proqramın "xalis fiskal yük" olmaması, əksinə, xidmət ixracını gücləndirən iqtisadi alətə çevrilməsi deməkdir.

**Cədvəl 4.** Türkiyədə beynəlxalq turist gəlişləri (2015–2024, nəfər).

| **İl** | **Say (nəfər)** |
|---|---|
| 2015 | 39 478 000 |
| 2016 | 30 289 000 |
| 2017 | 37 601 000 |
| 2018 | 45 768 000 |
| 2019 | 51 192 000 |
| 2020 | 15 894 000 |
| 2021 | 29 925 000 |
| 2022 | 50 453 000 |
| 2023 | 49 200 000 |
| 2024 | 62 269 000 |

**Mənbə:** Türkiyə Respublikası Mədəniyyət və Turizm Nazirliyinin sərhəd statistikası [7].

Müqayisəli baxış üçün Türkiyə nümunəsi istifadə oluna bilər. Cədvəl 4 və Cədvəl 5 göstərir ki, Türkiyə 2024-cü ildə 62.269 milyon turist qəbul edib və turizm gəlirləri 61.1 mlrd dollara çatıb [7,9]. Bu miqyas əlbəttə ki, Azərbaycandan fərqlidir, amma mexanizm baxımından eyni məntiq işləyir: turizm gəliri yalnız təbiət və iqlimlə izah olunmur, infrastruktur, nəqliyyat, xidmət standartları və inklüzivlik kimi faktorların hamısı xərcləməni

artırır. Türkiyənin “Safe Tourism” sertifikatlaşdırma mexanizmləri və əlçatanlıq təşəbbüsləri turizmin dörd mövsümə yayılmasına da təsir edir [10]. Azərbaycanın region turizmində də bu modeldən öyrəniləsi hissə var: əlçatanlıq tələblərini DÖST layihələrinin texniki tapşırığına başdan daxil etmək sonradan yenidənqurma xərclərini aşağı salır və layihənin NPV göstəricisini yaxşılaşdırır.

**Cədvəl 5.** Türkiyədə turizm gəlirləri (2015–2024, ABŞ $ mlrd).

| İl | Gəlir (ABŞ $ mlrd) |
|---|---|
| 2015 | 35.648 |
| 2016 | 26.505 |
| 2017 | 31.993 |
| 2018 | 36.791 |
| 2019 | 41.415 |
| 2020 | 13.771 |
| 2021 | 27.899 |
| 2022 | 41.176 |
| 2023 | 54.3 |
| 2024 | 61.1 |

**Mənbə:** Turkish Statistical Institute və Türkiyə Respublikası Mədəniyyət və Turizm Nazirliyinin rəsmi məlumatları [7,9].

Cədvəl 5-dən göründüyü kimi, DÖST-nin iqtisadi effektivliyi hesablananda praktikada üç blok nəzərə alınır: kapital xərcləri, əməliyyat xərcləri, gəlir və sosial nəticə. Kapital xərclərində dövlətin rolu təkcə pul vermək deyil, torpaq ayrılması, icazələrin sürətləndirilməsi, standartların vahidləşdirilməsi, minimum xidmət tələblərinin qoyulması kimi addımlar da gizli subsidiyadır və layihənin ümumi xərclərini azaldır [11, s.20]. Özəl tərəf isə tikinti və istismar səmərəliliyi ilə layihənin vahid xərcini aşağı çəkir. Gəlir tərəfdə isə əlçatanlıq birbaşa otaq doluluğu, mövsüm uzunluğu və xidmət paketlərinin dəyəri ilə ölçülə bilər. Azərbaycanda 2024-cü ildə otellərin gəlirlərinin 694 milyon manata çatması və yaşayış-qida sektorunda əlavə dəyərin artması fonunda əlçatanlıq yönümlü investisiyalar üçün bazar əsasının gücləndiyi görünür [1,3,5].

Dövlət–özəl sektor tərəfdaşlığı əlçatan turizm layihələrində maliyyə və əməliyyat məsuliyyətinin bölüşdürülməsi mexanizmi kimi qurulur. Türkiyədə dənizkənarı kurort zonalarında infrastrukturun dövlət tərəfindən təmin edilməsi və hotellərin özəl sektor tərəfindən inşa və idarə olunması modeli geniş tətbiq edilir. Dövlət torpaq, mühəndis-kommunikasiya xətləri və normativ standartları müəyyən edir, özəl tərəf isə tikinti, idarəetmə və xidmət keyfiyyətinə cavabdeh olur. Gürcüstanda Batumi və Tbilisi ətrafında turizm infrastrukturunun yenilənməsi zamanı oxşar mexanizm istifadə olunub, xüsusilə hava limanı və yol layihələri ilə hotellər şəbəkəsi paralel inkişaf etdirilib. Azərbaycan şəraitində region turizm zonalarında əlçatanlıq standartlarının layihə mərhələsində dövlət tərəfindən məcburi norma kimi qoyulması və istismar mərhələsinin özəl operatorlara verilməsi praktiki model kimi nəzərdən keçirilə bilər.

İqtisadi effektivliyin ölçülməsi üçün konkret göstərici sistemi formalaşdırılmalıdır. Türkiyədə turizm gəlirlərinin artımı investisiya qoyuluşları ilə müqayisəli şəkildə analiz edilir və regionlar üzrə doluluq səviyyəsi əsas indikator sayılır. Baltikyanı ölkələrdə, xüsusilə Estoniyada, inklüziv turizm obyektlərində orta qalma müddəti ayrıca ölçülür və vergi daxilolmaları ilə əlaqələndirilir. Azərbaycan üzrə 2024-cü ildə 3.4 milyard manatlıq xərcləmə fonunda əlçatan obyektlərin əlavə doluluq yaratma potensialı ayrıca hesablana bilər.

Risk bölgüsü tərəfdaşlıq mexanizminin mərkəzi elementidir. Türkiyədə iri turizm komplekslərində tikinti riski əsasən özəl tərəfin üzərinə düşür, dövlət isə normativ sabitliyi və təhlükəsizlik təminatını saxlayır. Gürcüstanda tələbat riski pandemiya dövründə dövlət zəmanət mexanizmləri ilə qismən kompensasiya olunmuşdu. Azərbaycan bazarında 2022–2024-cü illər üzrə bərpa tempi tələbat riskinin azaldığını göstərir və investor üçün proqnozlaşdırıla bilən mühit yaradır.

Əlçatan turizm obyektlərində əməliyyat riski xidmət keyfiyyəti və personal hazırlığı ilə bağlıdır və məhz bu səbəbdən də dövlət tərəfindən peşə təlim proqramlarının maliyyələşdirilməsi effektiv alət hesab edilə bilər. Mövsümi dalğalanmanın azaldılması isə risk portfelinin sabitləşdirilməsi baxımından əlavə üstünlük yaradır.

Regional iqtisadi təsir ayrıca qiymətləndirilməlidir. Türkiyənin Antalya bölgəsində inklüziv infrastruktura malik hotellər yaşlı turist seqmentini cəlb etməklə mövsümü uzadıb. Gürcüstanda sağlamlıq və reabilitasiya turizmi istiqamətində əlçatan obyektlər region gəlirlərini artırıb və kiçik biznesi aktivləşdirib. Azərbaycan regionlarında, xüsusilə Naftalan, Qəbələ və Şahdağ istiqamətlərində oxşar model tətbiq oluna bilər. Orta qalma müddətinin bir gün artması belə yerləşmə və qida sektorunda ciddi gəlir artımı yarada bilər. Regionlarda məşğulluğun genişlənməsi yerli vergi bazasına təsir göstərir.

Maliyyə modelləşdirməsi tərəfdaşlıq layihələrinin əsaslandırılmasında əsas mərhələdir. Türkiyədə iri kurort layihələrində 10–15 illik gəlir proqnozu və daxili gəlirlilik norması hesablanaraq qərar verilir. Baltikyanı ölkələrdə əlçatanlıq komponenti əlavə investisiya kimi deyil, gəlir artırıcı faktor kimi modelləşdirilir. Azərbaycan üçün hipotetik olaraq 100 otaqlı hotellər şəbəkəsində 10 faiz əlçatan otaq payı nəzərdə tutularsa, doluluq səviyyəsində 5–7 faiz artım proqnozlaşdırıla bilər. Əlavə xidmət paketləri və müşayiətçi turist axını gəlir strukturunu şaxələndirir.

Fiskal effekt dövlət baxımından ayrıca blok kimi qiymətləndirilməlidir. Türkiyədə turizm gəlirlərinin artımı birbaşa ƏDV və gəlir vergisi daxilolmalarında əks olunur. Gürcüstanda turizm xidmətləri ixracının yüksəlməsi tədiyə balansında müsbət saldo yaradıb. Azərbaycan üzrə 2024-cü ildə turizm xidmətləri dövriyyəsinin 3.6 milyard ABŞ dollarına çatması fiskal potensialın genişləndiyini göstərir. Əlçatanlıq yönümlü layihələrin payı artdıqca xidmət ixracı və vergi bazası paralel genişlənə bilər.

İnstitusional çərçivə dəqiqləşdirilməlidir. Estoniyada inklüziv turizm üzrə vahid standartlar turizm strategiyasına inteqrasiya edilib və monitorinq mexanizmi yaradılıb. Türkiyədə “Safe Tourism” sertifikatlaşdırma sistemi xidmət keyfiyyətini və təhlükəsizlik meyarlarını birləşdirir. Azərbaycan şəraitində universal dizayn tələblərinin DÖST müqavilələrində məcburi şərt kimi yer alması məqsədəuyğun görünür. Müqavilə indikatorlarının otaq doluluğu, mövsüm uzunluğu və məmnuniyyət səviyyəsi ilə əlaqələndirilməsi layihə intizamını gücləndirə bilər.

Sosial və iqtisadi nəticələrin paralel qiymətləndirilməsi əlçatan turizmin fərqləndirici xüsusiyyətidir. Türkiyədə yaşlı və məhdud hərəkətli turist seqmenti ailə üzvləri ilə birlikdə səyahət etdiyindən xərcləmə səviyyəsi yüksək qalır. Gürcüstanda reabilitasiya mərkəzləri ətrafında formalaşan xidmət ekosistemi yerli sahibkarlığın genişlənməsinə səbəb olub. Azərbaycan regionlarında inklüziv turizm infrastrukturu yaradılarsa, həm sosial inteqrasiya, həm də gəlir artımı paralel şəkildə müşahidə oluna bilər. Turizm məhsulunun dizayn mərhələsində əlçatanlıq elementlərinin nəzərə alınması investisiya effektivliyini daha dəqiq hesablamağa imkan verir.

**Nəticə**

Aparılan təhlil göstərir ki, əlçatan turizm sahəsində dövlət–özəl sektor tərəfdaşlığı iqtisadi əsaslandırıla bilən model kimi çıxış edir. 2015–2024-cü illər üzrə turist axını və xərcləmə dinamikası bazarın genişləndiyini və gəlir potensialının artdığını sübut edir. 2024-cü ildə 2.63 milyon nəfərlik giriş və 3.4 milyard manatlıq xərcləmə investisiya üçün kifayət qədər geniş maliyyə bazası formalaşdırır. Turizm xidmətləri dövriyyəsində ixracın artması isə sektorun valyuta gətirən istiqamətə çevrildiyini göstərir. Risk bölgüsü mexanizmi düzgün qurulduqda tikinti, əməliyyat və tələbat riskləri balanslaşdırıla bilər.

Türkiyə və Gürcüstan təcrübəsi göstərir ki, inklüziv infrastruktur mövsümi asılılığı azaldır və qalma müddətini artırır. Əlçatanlıq komponenti layihə dizaynına əvvəlcədən daxil edildikdə sonradan yenidənqurma xərcləri minimuma enir. Azərbaycan regionlarında oxşar model tətbiq olunarsa, yerləşmə və qida sektorunda əlavə dövriyyə yarana bilər. Orta qalma müddətinin uzanması birbaşa xidmət gəlirlərinə təsir edir. Vergi daxilolmaları və sosial ödənişlər paralel şəkildə artır.

İnstitusional səviyyədə universal dizayn standartlarının müqavilə mexanizminə inteqrasiyası layihələrin davamlılığını gücləndirir. Performans indikatorlarının doluluq, mövsüm uzunluğu və məmnuniyyət göstəriciləri ilə əlaqələndirilməsi tərəfdaşlıq intizamını artırır. Əlçatan turizm istiqamətində koordinasiyalı siyasət regional iqtisadi aktivliyi genişləndirən mexanizm kimi nəzərdən keçirilə bilər.

## ƏDƏBİYYAT SİYAHISI

1. Azerbaijan Respublikası Dövlət Statistika Komitəsi. Azerbaijan in figures. Bakı. 2025.
2. Azerbaijan Respublikası Dövlət Statistika Komitəsi. Inbound tourism, 2024. Bakı.
3. Azerbaijan Respublikası Dövlət Statistika Komitəsi. Tourism in Azerbaijan. Bakı. 2025.
4. Central Bank of the Republic of Azerbaijan. Balance of payments of the Republic of Azerbaijan: 2023 annual report. Bakı. 2024.
5. Central Bank of the Republic of Azerbaijan. Balance of payments of the Republic of Azerbaijan: 2024 annual report. Bakı. 2025.
6. De Matteis F., Notaristefano G., Bianchi P. Public-private partnership governance for accessible tourism in marine protected areas (MPAs). Sustainability, 2021;13(15):8455.
7. Republic of Türkiye Ministry of Culture and Tourism. Monthly Border Bulletin (December 2024). Ankara. 2024.
8. Sadka E. Public-private partnerships: A public economics perspective. CESifo Economic Studies, 2007;53(3):466-490.
9. Turkish Statistical Institute. Tourism statistics, Quarter IV: October-December and annual, 2024. Ankara. 2025.
10. Türkiye Tourism Promotion and Development Agency. (n.d.). Safe Tourism Program.
11. UN Tourism. Accessible tourism and inclusive destinations: Policy guidance. Madrid. 2021.
12. Cheng Z., Wang H., Xiong W. Does PPP matter to sustainable tourism development? An analysis of the spatial effect of the tourism PPP policy in China. Sustainability, 2018;10(11):4058.
13. Darcy S., Cameron B., Pegg S. Accessible tourism and sustainability: A discussion and case study. Journal of Sustainable Tourism, 2010;18(4):515–537.
14. Darcy S., McKercher B., Schweinsberg S. From tourism and disability to accessible tourism: A perspective article. Tourism Review, 2020;75(1):140–144.
15. De Matteis F., Notaristefano G., Bianchi P. Public-private partnership governance for accessible tourism in marine protected areas (MPAs). Sustainability, 2021;13(15):8455.
16. Domínguez T., Fraiz J.A., Alén E. Economic profitability of accessible tourism for the tourism sector in Spain. Tourism Economics, 2013;19(6):1385–1399.
17. Domínguez V.T., Alén González E., Darcy S. Accessible tourism online resources: A Northern European perspective. Scandinavian Journal of Hospitality and Tourism, 2019;19(2):140–156.
18. Ghanem M., Elshaer I.A., Shaker, A. (). Tourism public-private partnership (PPP) projects: An exploratory sequential approach. Tourism Review, 2022;77(2):427–450.
19. Gillovic B., McIntosh A. Stakeholder perspectives of the future of accessible tourism in New Zealand. Journal of Tourism Futures, 2015;1(3):223–239.
20. Wan Y.K.P., Li X., Lau V.M.C., Dioko L.D.A.N. Destination governance in times of crisis and the role of public-private partnerships in tourism recovery from COVID-19: The case of Macao. Journal of Hospitality and Tourism Management, 2022;51:218–228.

**Aytac Saleh HASANOVA**
Master's student at Western Caspian University

## ASSESSING THE ECONOMIC EFFICIENCY OF PUBLIC-PRIVATE PARTNERSHIP IN THE DEVELOPMENT OF ACCESSIBLE TOURISM

**Summary**

Purpose: to evaluate the economic efficiency of public–private partnership in developing accessible tourism. Design/method/approach: comparative analysis of 2015–2024 statistics on arrivals, tourist spending and tourism services balance for Azerbaijan and peer countries. Findings: accessible tourism has strong market potential and PPP reduces delivery risk by combining regulation with private investment and operational efficiency. In Azerbaijan, foreign arrivals reached 2,626,700 in 2024 and inbound tourist spending for tourism purposes totalled 3.4 billion manats. Embedding accessibility in project design supports higher utilisation, stronger receipts and more stable seasonality.

**Keywords:** accessible tourism, public-private partnership, economic efficiency, tourist spending, tourism services balance.

**Айтадж Салех ГАСАНОВА**
магистрант Западно-Каспийского университета

## ОЦЕНКА ЭКОНОМИЧЕСКОЙ ЭФФЕКТИВНОСТИ ГОСУДАРСТВЕННО-ЧАСТНОГО ПАРТНЕРСТВА В РАЗВИТИИ ДОСТУПНОГО ТУРИЗМА

**Резюме**

Цель исследования оценить экономическую эффективность государственно-частного партнёрства в развитии доступного туризма. Метод исследования сравнительный анализ статистических данных за 2015–2024 гг. по туристическим потокам, туристическим расходам и балансу туристических услуг в Азербайджане и сопоставимых странах. Результаты показывают, что рынок доступного туризма имеет высокий потенциал, а ГЧП снижает риски инфраструктурных проектов за счёт распределения инвестиций и ответственности. В Азербайджане в 2024 г. число прибывших иностранцев составило 2 626 700, а расходы иностранных туристов по туристическим целям достигли 3,4 млрд манатов. Такие показатели расширяют доходную базу для проектов доступности и позволяют оценивать их окупаемость через рост туристических расходов, экспорт туристических услуг и дополнительные налоговые поступления.

**Ключевые слова:** доступный туризм, государственно-частное партнерство, экономическая эффективность, туристические расходы, баланс туристических услуг.

**Daxil olub:** 06.04.2026